# GƏNC ALİMLƏRİN TƏDQİQAT VƏ İNOVASİYA LAYİHƏLƏRİ ÜZRƏ MÜRACİƏT QAYDALARI

Layihə təklifləri UNEC-də aparılan elmi-tədqiqat işlərinin dəstəklənməsi və inkişafı baxımından "Daxili qrant müsabiqələrinin keçirilməsi" Qaydalarına əlavə edilmiş formalara uyğun olaraq təqdim olunmalıdır. Müsabiqəyə təqdim olunan layihələr aşağıdakı tələblərə cavab verməlidir:

- **Layihənin dəyəri maksimum 15 min manatdır;**
- **Layihədə təklif olunan işlər hər hansı qrant və digər mənbələrdən maliyyələşdirilən layihələrin predmeti olmamalıdır;**
- **Hər bir iddiaçı müsabiqədə yalnız bir ərizənin iştirakçısı ola bilər;**
- **Bütün layihələr, bir qayda olaraq Azərbaycan dilində, elektron formada təqdim edilməlidir.**

Müsabiqədə iştirak etmək istəyən gənc alimlər komandası layihə sənədlərini tam rəqəmsal formatda universitetin rəsmi **unec.qrant@unec.edu.az** elektron poçt ünvanına göndərməlidirlər.

Müraciətlərin avtomatlaşdırılmış şəkildə qeydə alınması və çeşidlənməsi üçün aşağıdakı **e-poçt protokoluna** əməl edilməsi mütləqdir:

**1. Məktubun başlığı**

Məktubun mövzu hissəsində müsabiqənin adı, kateqoriya nömrəsi və layihə rəhbərinin Adı, Soyadı mütləq qeyd edilməlidir.

**Nümunə:** UNEC Qrant 4 - Kateqoriya 3 – Ad, soyad

**2. Məktuba əlavə edilməli olan sənədlər (Attachments)**

Bütün rəsmi sənədlər layihə rəhbəri və komanda üzvləri tərəfindən imzalanmalı, skan edilərək **PDF formatında** tək bir məktubda qoşma olaraq göndərilməlidir:

- **Ərizə:** Layihənin adı, kateqoriyası və komanda üzvlərinin siyahısı;
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;
- İş yeri və vəzifəsi (təhsilalanların təhsil adlığı fakültə və ixtisası) barədə arayış;
- İddiaçının vergi uçotu haqqında şəhadətnamənin surəti;
- Qrant məbləğinin köçürüləcəyi iddiaçının bank hesabı barədə məlumatlar;
- **Layihə təklifi:** Mövzunun aktuallığı, metodologiyası və hədəflənən elmi nəticələr (maksimum 5 səhifə) ;
- **Büdcə və fəaliyyət planı:** Xərclərin aylıq və bəndlər üzrə smetası;

**3. Təsdiq məktubu və unikal qeydiyyat nömrəsi**

Müraciət daxil olduqdan sonra **24 saat ərzində** UNEC Biznes Mərkəzi (və ya müvafiq işçi qrup) tərəfindən ilkin texniki yoxlama aparılacaq və layihə rəhbərinə unikal qeydiyyat nömrəsini ehtiva edən rəsmi cavab məktubu göndəriləcəkdir.

**SON MÜRACİƏT TARİXİ:15.09.2026**